**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN EMAL SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ İNKİŞAFDA ROLU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Sadiq Qəhrəman oğlu Əfəndiyev**

Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə – 2021**

Dissertasiya işi Azərbaycan Texnologiya Universitetinin Menecment kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor |
| | **Qəzənfər Salman oğlu Süleymanov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor |
| | **İlham Alıcı oğlu Aslanzadə** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent |
| | **Nəriman Bəhram oğlu Böyükkişi** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent |
| | **Ramil Məhəmmədəli oğlu Əliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED.1.10 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | iqtisad elmləri doktoru, professor |
| (imza) | **Nazim Müzəffərli (İmanov)** |
| Dissertasiya şurasının elmi katibi: | iqtisad üzrə fəlsəfə doktoru, dosent |
| (imza) | **Sevda Məmməd qızı Seyidova** |
| Elmi seminarın sədri: | iqtisad elmləri doktoru, professor |
| (imza) | **Tərbiz Nasib oğlu Əliyev** |

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İnkişaf etmiş ölkələrin təcrübəsi bir daha göstərir ki, öz milli gücünü elm və texnikanın mütərəqqi sahələrində toplayan hər bir ölkə, bazar iqtisadiyyatı dayanıqlı və davamlı inkişaf etmiş digər ölkələrlə rəqabət aparmaq gücünə malikdir. Azərbaycanda da bazar münasibətləri əsasında yeni özünü idarəetmə sisteminin yaradılması bazar strukturlarının formalaşmasının əsas tərkib hissələrindən biridir. İdarəetmə sisteminin səmərəliliyi təşkilati hüquqi formadan və iqtisadi tənzimlənmənin metod və mexanizmlərindən asılıdır. Məhz belə bir mexanizmlərə malik olan bazar strukturlarının yaradılması Azərbaycan sənayesinin dayanıqlı və davamlı iqtisadi inkişafı üçün zəruri şərtlərdən biridir.

Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması və iqtisadi strukturun təkmilləşdirilməsi baxımından sənayenin dayanıqlı və davamlı inkişafı, aparılan iqtisadi siyasətin prioritet sahələrindəndir. Sənayenin davamlı inkişafı həm yüksək ixtisaslı işçi qüvvəsi, əhalinin məşğulluğu, urbanizasiya, gəlir səviyyəsi, həm də araşdırma və tədqiqat kimi bir sıra sosial və mədəni nöqteyi nəzər baxımından da əhəmiyyətlidir.

Bu məqsədlərə çatmaq üçün milli iqtisadiyyatın əsas sahələri üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri rəhbər tutulmuşdur. Qəbul edilmiş proqramlar və konsepsiyalarda əsas məqsəd qloballaşma şəraitində dövlətin elmi-texnoloji və innovasiya siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, qeyri-neft sektorunun sürətli dinamik inkişafına nail olunması, onun iqtisadi səmərələliyinin daha da artırılması, innovasiya fəaliyyətinin müasir tələblərə uyğun gücləndirilməsi və həmçinin infrastruktur fəaliyyətinin davamlı inkişaf etdirilməsi, sənaye parklarının, texnoloji mərkəzlərin, innovasiyalı istehsalın yaradılması, ağır sənaye və maşınqayırma sahəsində mövcud aktivlər üçün əlverişli üsulların seçilməsi, rəqabətədavamlı sahənin yaradılması, maliyyə imkanları təmin edilərək beynəlxalq iqtisadi əməkdaşlığın həyata keçirilməsi və

sair kimi tədbirlərin həyata keçirilməsi başlıca strateji hədəflər sırasındadır.

Ölkənin milli iqtisadiyyatının ən mühüm aparıcı sahəsi, onun iqtisadi inkişafında, iqtisadi təhlükəsizliyin həyata keçirilməsində, o cümlədən onun strateji məqsədlərinin təmin olunmasında xüsusi əhəmiyyətə malik olan və sənayenin əsas sahələrindən birini təşkil edən emal sənayesinin təkmilləşdirilməsi gələcək inkişaf baxımından çox vacib məsələlərdən biridir. Bütün bunlar müasir dövrdə, emal sənayesi müəssisələrində, innovasiya prosesinin və onun təkmilləşdirilməsinin təşkili və tənzimlənməsinə mane olan amillərin idarə edilməsini, o cümlədən onların dövlətin davamlı və dayanıqlı iqtisadi inkişaf strategiyasına uyğun olaraq yenidən idarə edilməsini zəruri edir. Bunlar isə dissertasiya işinin aktuallığını əsaslandıran əsas amillərdir.

Bazar iqtisadiyyatı şəraitində emal sənayesi müəssisələrinin dayanıqlı iqtisadi inkişafda rolu və onun təkmilləşdirilməsi probleminin həlli üçün həm xarici, həm də respublikanın iqtisadçı alimləri və digər elmi tədqiqatçılar elmi araşdırmalar aparmış və elmi əsərlər yazmışdırlar. Yəni, iqtisadiyyatın bir çox sahələrinin, xüsusilə sənaye müəssisələrinin ölkənin dayanıqlı iqtisadi inkişafına təsiri problemi iqtisadi nəzəriyyə klassikləri də daxil olmaqla, iqtisadiyyat sahəsi üzrə bir çox alimlərin hər zaman diqqətində olmuş və hal-hazırda da bu problemin tədqiqinə aid çoxlu sayda elmi-tədqiqat işləri aparılmışdır. Belə ki, dissertasiya işində qeyd edilən problemin nəzəri və metodoloji əsasları üzrə adları keçən xarici ölkə alimləri K.Klark, C.A.Şumpeter, V.Cevons, K.Marks, V.Mitçell, C.S.Mill, R.Maltus, A.Smit, D.Rikardo, E.Çemberlin, C.Robinson və başqa bu kimi alimlər elmi tədqiqat işləri aparmışdırlar.

MDB məkanında isə Q.Azov, A.Viktorova, A.Sokolov, V.Abramov, L.Çaynikova, P.Zalov, E.Smirnov və sair tədqiqatçılar, Azərbaycanda isə – akademik Z.Ə.Səmədzadə, i.e.d., prof. N.M.İmanov, i.e.d., prof. T.N.Əliyev, i.e.d., prof. İ.H.Alıyev, i.e.d., prof. R.P.Sultanova, i.e.d., prof. Ş.A.Muradov, i.e.d., prof.

Ə.X.Nuriyev, i.e.d., prof. T.H.Hüseynov, i.e.d., prof. M.C.Atakişiyev, i.e.d., prof. Q.S.Süleymanov, i.e.d., prof. E.Y.Məmmədov, i.e.d., prof. G.Z.Yüzbaşıyeva və sair kimi tanınmış iqtisadçı alimlər problemin müxtəlif istiqamətləri üzrə çoxlu sayda tədqiqat işləri aparmışdırlar.

Sahədə aparılan tədqiqat işlərinin əhəmiyyətini azaltmayaraq qeyd etmək olar ki, respublikamızın emal sənayesi müəssisələrinin, xüsusən də maşınqayırma sənayesi müəssisələrinin qloballaşan müasir dünyada dayanıqlı iqtisadi inkişaf strategiyasının formalaşması mexanizmlərinin kompleks şəkildə tədqiq olunması kifayət qədər öyrənilməmişdir.

Digər tərəfdən isə 2011-2019-cu illər üzrə aparılan araşdırmalar zamanı məlum olur ki, respublikanın emal sənayesi müəssisələrinin əsas sənaye-istehsal fondlarının mövcud vəziyyəti, onların yeniləşməsi, sıradan çıxması və aşınma səviyyəsi, fondla silahlanma və fond verimi göstəriciləri, bu sənaye müəssisələrinin texniki-texnoloji səviyyəsi rəqabətədavamlı və beynəlxalq standartlara cavab verən emal sənayesi məhsullarının istehsalına və ixracına bütövlükdə imkan yaratmır.

Emal sənayesi müəssisələrinin zəif inkişaf etməsi, onun daxili və xarici bazarları kifayət qədər təmin edə bilməməsi mövcud idarəetmə sisteminin bazar münasibətlərinə cavab verə bilməməsini, idarəetmənin səmərəli forma və metodlarının lazımınca tətbiq edilməməsini göstərir.

Azərbaycanın emal sənayesinin dayanıqlı inkişaf etdirilməsinin əsas məqsədi ölkədə dünya standartlarına cavab verən rəqabətə davamlı və ixrac yönümlü, elmtutumlu və yüksək texnologiyalı emal sənayesi məhsullarının istehsalına nail olmaqla ölkənin neft amilindən asılılığını aradan qaldırmaqdır. Bunun isə həyata keçirilməsi qeyd olunduğu kimi emal sənayesi sahələrində innovasiya mənbələrinin və investisiya ehtiyatlarının təyin edilməsi və onların artırılması, ölkənin təbii sərvətlərinin və əmək ehtiyatlarının səfərbər edilməsi və dövlət tərəfindən tənzimlənmə sistemlərinin təkmilləşdirilməsi əsasında mümkün ola bilər.

Emal sənayesinin dayanıqlı iqtisadi inkişaf etdirilməsinin əsas məqsədlərindən biri də sənayenin rəqabət qabiliyyətinin artırılmasına yönəldilmiş bir sıra tədbirlərin həyata keçirilməsini təmin etməkdir. Bu tədbirlərin həyata keçirilməsi məqsədilə sahəvi araşdırmalar aparmaqla müxtəlif sektorların xüsusiyyətlərinə uyğun əlavə tədbirlərlə dəstəklənməlidir. Emal sənayesinin dayanıqlı iqtisadi inkişafının yüksəldilməsi məqsədi ilə enerji qiymətlərinin tənzimlənməsində aktivlik artırılaraq gömrük rejimi, əlverişli vergi və çevik məzənnə siyasəti ilə müşayiət edilməlidir.

Bu gün emal sənayesi müəssisələrinin mövcud vəziyyəti onu deməyə əsas verir ki, qloballaşan müasir dünyada sahə hələ də rəqabətə davamlı sənaye məhsulları istehsal etməyə tam hazır deyildir. Bu isə onu göstərir ki, emal sənayesi müəssisələrinin dayanıqlı iqtisadi inkişafının formalaşması mexanizmləri yenidən elə işlənilməlidir ki, həmin halda ölkədə yeni rəqabət mühiti yaradılarkən müəssisələrin rəqabət qabiliyyətliliyinin azalması ilə nəticələnməsin.

Bütün bunlar dissertasiya işinin məqsəd və vəzifələrini şərtləndirir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi bazar iqtisadiyyatında respublikamızda emal sənayesi müəssisələrinin iqtisadi inkişafda rolunun qiymətləndirilməsi və onun təkmilləşdirilməsinin yeni metod və mexanizmlərinin işlənib hazırlanmasına dair elmi cəhətdən əsaslandırılan tövsiyyələr hazırlamaqdır.

Tədqiqat işində qeyd olunan məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- dayanıqlı və davamlı iqtisadi inkişafın formalaşmasının nəzəri və metodoloji əsaslarının öyrənilməsi;
- dayanıqlı və davamlı iqtisadi inkişafın ölkə üzrə əsas inkişaf mərhələlərinin müəyyən edilməsi;

- sənaye sahələrinin iqtisadi inkişafda rolu və universitet-sənaye əlaqələrinin qurulmasının iqtisadi inkişafa təsiri yollarının araşdırılması;
- emal sənayesi müəssisələrinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi;
- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafa təsirinin beynəlxalq təcrübəsinin öyrənilməsi və Azərbaycanın emal sənayesi müəssisələrində onlardan istifadənin mümkünlüyünün araşdırılması;
- Azərbaycanın emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafda rolunun müəyyən edilməsi;
- emal sənayesi müəssisələrinin yeni dayanıqlı və davamlı iqtisadi inkişaf modellərinin yaradılması;
- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafının strateji idarə edilməsi yollarının müəyyən edilməsi. [41, s.502-504]

Dissertasiyanın hazırlanması zamanı xarici və ölkə iqtisadçı alimlərinin tədqiqat işlərindən, dünya ölkələrinin təcrübəsindən, Azərbaycan Respublikasının qanunları və qərarlarından, Respublika Prezidentinin fərman və sərəncamlarından, Dövlət Proqramlarından, Azərbaycan Respublikasının Milli Məclisinin qəbul etdiyi qanunlar və digər qanunvericilik aktlarından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, sərəncamları və digər hüquqi normativ sənədlərdən istifadə edilmişdir.

**Tədqiqat metodu kimi** məntiqi ümumiləşdirmə, statistik təhlil, statistik və qrafik metodlar, müşahidə üsulu, ekspert qiymətləndirməsi, müqayisəli riyazi təhlillərdən və reqressiya üsullarından, kompüter texnikası və müasir proqram təminatı vasitələrinin köməyindən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- İqtisadi inkişafa təsir edən əsas amillərdən biri universitet-sənaye əlaqələrinin formalaşdırılması və genişləndirilməsidir. Qeyd etmək olar ki, universitet-sənaye əlaqələrinin inkişafının əsas inkişaf amili bu iki təşkilat arasında əlaqələrin onların maraqları əsasında qurulması və bu əlaqələrin güclənməsi üçün dövlətin lazımi dəstək göstərməsidir. ***(bax. səh 19)***

- Emal sənayesi sahələrinin kifayət qədər maliyyələşməməsi, köhnəlmiş texnologiyalar, elmtutumlu sənaye sahələrində istifadə edilən fiziki və mənəvi cəhətdən aşınmış əsas fondlar proqressiv struktur dəyişikliklərinin qarşısında ciddi problem olaraq durur və bununla da respublikada iqtisadi artım və dayanıqlı iqtisadi inkişafın imkanlarını məhdudlaşdırır. Ölkənin milli iqtisadiyyatının ən mühüm aparıcı sahəsi və onun iqtisadi inkişafında əhəmiyyətli rola malik olan sənaye sahəsi, iqtisadi təhlükəsizliyin həyata keçirilməsində, o cümlədən onun strateji məqsədlərinin təmin olunmasında xüsusi əhəmiyyətə malik olan bir sahədir. Sənayedə istehsal olunan məhsulların yüksək texnoloji istehsalı müasir şəraitdə ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasında hər zaman vacib rol oynamışdır. ***(bax. səh 28)***

- Dünya iqtisadiyyatının müasir qloballaşma prosesi Azərbaycan iqtisadiyyatının inteqrasiya nəticəsi kimi birbaşa iqtisadi inkişafın mərhələli şəkildə formalaşmasına təsir göstərmişdir. Qeyd olunan iqtisadi problemlərin həllində ümumi görünən vasitələrlə birlikdə dayanıqlı və davamlı iqtisadi inkişafda hər bir tarixi dövrləşmənin özünəməxsus qanunauyğunluğu olmaqla yanaşı, ilkin olaraq milli vasitələrdən istifadə olunmasına üstünlüyün verilməsi qarşıya qoyulmuşdur. ***(bax. səh 35)***

- Sənayenin mühüm aparıcı sahəsi olan emal sənayesinin inkişaf səviyyəsi davamlı iqtisadi inkişafın təmin edilməsinin mühüm amillərindən biridir. Emal sənayesi iqtisadiyyatın çoxşaxəli sahəsi kimi cəmiyyətin fərqli tərəflərinin inkişafını tələb edərək onun rəqabət qabiliyyətini formalaşdırır. Göründüyü kimi sənaye sahəsinin ÜDM-dəki çəkisi 2019-cu il üzrə 41,4% təşkil etmişdir. Emal sənayesi üzrə

isə bu göstərici qeyd olunan il üzrə 4,7% təşkil edir. Bu statistika sahənin daha da inkişaf etdirilməsinin aktual olduğunu bildirir. ***(bax. şəkil 2.1.2)***

- Emal sənayesi müəssisələrinin əsas göstəricilərinin təhlili zamanı sahədə istehsal olunan məhsulun (işlərin, xidmətlərin) həcmi göstəricisinin 11793,8 min manat olması, sahədə istehsal olunmuş məhsulun sənaye məhsulunun ümumi həcmindəki payının 25,1% təşkil etməsi, əsas kapitala yönəldilmiş investisiyaların həcminin 2466,4 milyon manat olması və bu da sahəyə qoyulan investisiyaların ümumi həcmində payının 26,7% olması bir daha göstərir ki, bu sahəyə daha da önəm verilməsi məqsədə uyğundur. ***(bax. cədvəl 2.1.4)***

- Emal sənayesi müəssisələrində istehsal olunan əmtəəlik məhsulların natura ifadəsində göstəricilərinə nəzər saldıqda görürük ki, həmin məhsullarının istehsal həcminin artırılması vacib məsələ kimi qarşımızda durur. ***(bax. cədvəl 2.1.7)***

- Emal sənayesi sahəsində innovasiyaların tiplərinə görə texnoloji innovasiyalara çəkilən xərc göstəricisinin – yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcm göstəricilərinin, innovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərc göstəricilərinin, fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərc göstəricilərinin və fəaliyyət növləri və tətbiq istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərc göstəricilərinin təhlilinin nəticəsi onu göstərir ki, sahəyə diqqətin artırılması məhz vacib şərtlərdən biridir. ***(bax. cədvəl 2.1.11)***

- Sənayenin inkişafı siyasətinin işlənilməsi üçün əvvəlcə emal sənayesinin müasir vəziyyəti tədqiq olunmalı və onun iqtisadi inkişaf problemləri müəyyən edilməlidir. Bunlara daxili tələbin aşağı səviyyədə olmasını və satış üçün bazarların məhdud olmasını, əsasən milli istehsal məhsullarının və xidmətlərin aşağı keyfiyyətdə olmasını, istehsala çəkilən xərclərin yüksək olmasını, daxili bazara idxal olunan məhsulların payının çox olmasını, əsasən yerli istehsal olunan məhsulların xammalının xaricdən gətirilməsini, dövlət tərəfindən

tənzimlənən yerli məhsulların istehsalının aşağı səviyyədə olmasını, bazar münasibətləri şəraitində istehsal sahələrinin beynəlxalq bazara zəif uyğunlaşmasını, beynəlxalq bazarların və onlara çıxışın çətinlikləri ilə bağlı problemlərin tədqiq olunmamasını və sair problemləri aid etmək olar. ***(bax. səh 61)***

Alınmış nəticələr Azərbaycanın emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafının və eləcədə dövlətin iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasında istifadə oluna bilər. Tədqiqat işində emal sənayesi müəssisələrinin baza sahəsi olan maşınqayırma sənayesi müəssisələri, o cümlədən "Azneftkimyamaş" ASC-yə daxil olan müəssisələrinin də statistik məlumatlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Azərbaycanın emal sənayesi sahələrinin dayanıqlı və davamlı iqtisadi inkişafı üçün universitet-sənaye əlaqələrinin inkişaf etdirilməsi təklif edilmişdir;
- emal sənayesi müəssisələrinin rəqabətədavamlı inkişafına təsir edən amillərin kompleks şəkildə tədqiqi aparılmışdır;
- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafa təsirinin qiymətləndirilməsinin yeni metodiki əsasları işlənib hazırlanmışdır;
- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişaf strategiyasının proqnoz modelləri işlənib hazırlanmışdır;
- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafında dövlət siyasətinin strateji istiqamətləri qeyd edilmişdir;
- emal sənayesi müəssisələrinin dayanıqlı və davamlı iqtisadi inkişafının strateji idarəedilməsi yolları müəyyən edilmiş və təkliflər hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, işin əsas nəticə və təklifləri bütün qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesi müəssisələrinin rəqabətqabiliyyətliyinin

təkmilləşdirilməsi və innovasiyalı inkişafı ilə bağlı yeni proqramların və lahiyələrin işlənməsində, dövlətin dayanıqlı iqtisadi inkişaf siyasətinin formalaşmasında əhəmiyyətli ola bilər.

**Tədqiqatın predmetini** Azərbaycanın emal sənayesi müəssisələrinin iqtisadi inkişaf strategiyasının formalaşması mexanizmləri təşkil edir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin bir sıra mühüm məsələləri və ayrıca elmi nəticələri yazılı məruzə şəklində "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyəti, "Sabunçu Elmi-İstehsalat Birliyi" Törəmə Açıq Səhmdar Cəmiyyətində birgə müəssisəyə təqdim olunmuş, müvafiq aprobasiyadan keçərək dissertasiya işinin nəticələrinin istiafdə üçün qəbul edilməsi barədə tətbiqi haqqında arayış **(01/69 №-li 22 may 2015-ci il tarixli arayış)** alınmışdır. Dissertasiya işinin əsas nəticələri müxtəlif beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslarda məruzə edilmiş və tədqiqatin nəticələri üzrə ümumilikdə 35 elmi əsər, o cümlədən xaricdə 6 elmi məqalə və tezis dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi doktorantın təhsil aldığı Azərbaycan Texnologiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən (10 səhifə), üç fəsildən (I fəsil-24 səhifə, II fəsil-48 səhifə, III fəsil-34 səhifə), doqquz bölmədən, nəticədən (5 səhifə), istifadə edilmiş ədəbiyyat siyahısından (9 səhifə) və əlavədən (8 səhifə) ibarətdir. Tərtib olunmuş dissertasiya işinin ümumi həcmi 132 səhifədən (236245 işarədən – şəkillər, cədvəllər, qrafiklər, əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə), o cümlədən 20 cədvəldən, 2 şəkildən və 8 səhifə əlavədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

### GİRİŞ

**FƏSİL I. İQTİSADİ İNKİŞAFIN FORMALAŞMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1. İqtisadi inkişafın formalaşmasına nəzəri yanaşmalar və iqtisadi inkişaf modelləri
1.2. Dünya iqtisadiyyatının və Azərbaycanın əsas iqtisadi inkişaf mərhələləri
1.3. Sənaye sahələrinin iqtisadi inkişafda rolu və universitet-sənaye əlaqələri

**FƏSİL II. AZƏRBAYCANIN EMAL SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Azərbaycanın emal sənayesi müəssisələrinin mövcud vəziyyəti
2.2. Azərbaycanın emal sənayesi müəssisələrinin iqtisadi inkişafda rolu
2.3. Azərbaycanın maşınqayırma sənayesinin mövcud vəziyyəti və emal sənayesindəki rolu ("Azneftkimyamaş" ASC-nin timsalında)

**FƏSİL III. AZƏRBAYCANIN EMAL SƏNAYESİNİN İQTİSADİ İNKİŞAFDA ROLUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ**

3.1. Emal sənayesinin inkişaf istiqamətləri və onun təkmilləşdirilməsi
3.2. Emal sənayesinin strateji idarə edilməsində dövlət siyasətinin əsas istiqamətləri
3.3. Azərbaycanın emal sənayesinin iqtisadi inkişafının proqnoz modeli

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## MÜDAFİƏYƏ TƏQDİM OLUNAN ƏSAS MÜDDƏALAR

**1. Azərbaycanın sənaye müəssisələrində iqtisadi inkişafın formalaşması ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafını**

**təmin edərək sənaye müəssisələrinin iqtisadi səmərəliliyinin və onun rəqabətqabiliyyətinin artırılmasına imkan vermişdir.**

Ölkədə iqtisadiyyatın dayanıqlı və davamlı inkişafının təmin edilməsi, əhalinin sosial iqtisadi rifahının yüksəldilməsi, dayanıqlı iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması, dünya iqtisadiyyatına səmərəli inteqrasiya edilməsi və həmçinin ölkənin uzunmüddətli davamlı inkişaf strategiyasına uyğun olaraq qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi və onun ixrac imkanlarının genişləndirilməsi hazırkı mərhələdə dövlətin qarşıya qoyulmuş əsas vəzifələrindəndir və qeyri-neft sektorunun dayanıqlı inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin əsas prioritetini təşkil edir.

Ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafını təmin edən ən vacib amil – sənaye müəssisələrinin iqtisadi səmərəliliyinin və onun rəqabətqabiliyyətinin daha da artırılmasıdır. Azərbaycan Respublikasının iqtisadiyyatının ən vacib sahəsi olan sənaye, ölkənin və onun regionlarının iqtisadi potensialının səviyyəsini müəyyən edir. Sənayenin sahə strukturunun əsas təkmilləşdirmə istiqaməti isə – emal sənayesi müəssisələrinin payının artırılmasıdır. Emal sənayesinin əksər sahələrinin aşağı gəlirliliyi struktur-texnoloji modernləşdirmənin aparılmasına maneələr yaradır ki, bu maneələrin də aradan qaldırılması aktiv dövlət siyasəti aparılmadan mümkün deyildir.

Məlumdur ki, hal-hazırda, Azərbaycanın qeyri-neft sektorunun inkişafında əsas prioritet istiqamətlər kimi kənd təsərrüfatı, turizm, loqistika, həmçinin, emal sənayesi də daxil olmaqla, maşınqayırma və digər sənaye sahələri durur. Digər tərəfdən, əsas maliyyə aktivlərinin iqtisadiyyatın xammal sektorunda cəmlənməsi və emal sahələrinin kifayət qədər maliyyələşməməsi, köhnəlmiş texnologiyalar, elmtutumlu sənaye sahələrində istifadə edilən fiziki və mənəvi cəhətdən aşınmış əsas fondlar proqressiv struktur dəyişikliklərinin qarşısında ciddi problem olaraq durur və bu respublikada iqtisadi artım və dayanıqlı iqtisadi inkişafın imkanlarını məhdudlaşdırır. Hasilat və

emal sahələri arasında sahəvi proporsiyaların birincinin xeyrinə dəyişməsi ölkədə sənaye strukturunun pisləşməsinə gətirib çıxartmışdır. Buna səbəb isə struktur məsələlərinə kifayət qədər diqqətin yetirilməməsi olmuşdur[1].

**2. Dayanıqlı və davamlı iqtisadi inkişafa müsbət təsir edən amillərdən biri kimi universitet-sənaye əlaqələrinin rolu müəyyən edilmişdir.**

Aparılmış araşdırmalardan müəyyən olunmuşdur ki, inkişaf etmiş dünya ölkələrində universitet ilə sənaye arasında əlaqələrin inkişafına maneələrdən biri sənaye müəssisələrinin tədqiqat və işləmə sahəsində mümkün tərəf müqabilinin tapılmasında çətinliklərlə qarşılaşmalarıdır. Bu problemlərin həll edilməsi üçün bir sıra inkişaf etmiş ölkələrdə dövlət tərəfindən universitetlərin şəbəkəsi yaradılmış və dövlət tərəfindən idarə olunur. Universitetlərin şəbəkəsi dedikdə ölkədə mövcud olan hər bir universitetin bütün sənaye-universitet əlaqələrini əhatə edə bilən sahələr üzrə koordinasiyası məqsədilə müvafiq onlayn platformanın yaradılması nəzərdə tutulmuşdur.

Məhz belə bir onlayn platformanın həyata keçməsi üçün ölkədə mövcud olan bütün universitetlər arasında universitet-sənaye əməkdaşlıqları sahəsində razılıq əldə edilməli, ölkədə olan hər bir universitetin sənaye ilə əlaqələrini koordinasiya edən portalın yaradılması (portal informasiya xarakterli olmalı, buradan hər bir universitetə giriş imkanları nəzərdə tutulmalı, hər bir universitetin sənaye ilə əməkdaşlıqlarını əhatə edən informasiyalar yer almalı), hər bir universitetdə universitet-sənaye əməkdaşlıqlarının inkişafı ilə əlaqədar fəaliyyət göstərən şöbələrlə sıx əməkdaşlıq edilərək makro səviyyədə ikitərəfli əlaqələrin genişləndirilməsi məqsədilə müvafiq birgə siyasət yürüdülməli və bir sıra vəzifələr müəyyənləşdirilməlidir.

---

[1] Əfəndiyev, S.Q. Azərbaycan Respublikasında iqtisadi inkişafın formalaşmasının nəzəri metodoloji əsasları // AMEA-nın Xəbərləri, İqtisadiyyat elmləri seriyası, – Bakı, – 2013. №3, – s. 50-55

Universitet tərəfindən həyata keçirilməsi labüd olan tədbirlərdən biri kimi universitetlərin əsas missiyaları tədris və elm olduğundan universitet daxilində sənaye ilə əlaqələr şöbəsinin yaradılmasıdır. Bunun da əsas məqsədi universitetin missiyalarına uyğun müvafiq sənaye müəssisələri və dövlət orqanları ilə qarşılıqlı əlaqələrin yaradılmasıdır. Bu şöbənin əsas fəaliyyətinin birincisi müvafiq sayt və yaxud da universitetin internet saytı çərçivəsində bütün funksiyaları əhatə edən linkin yaradılmasıdır. Bunun vasitəsilə də hamının istənilən informasiyasını tez bir zamanda və sürətlə əldə etmə imkanını yaratmaq olar.

**3. Azərbaycan Respublikasının iqtisadiyyatının aparıcı sahələrindən biri olan emal sənayesi sahələri öz növbəsində ölkəmizin təsərrüfat sahələrinin də əsas aparıcı bölmələrindən biridir.**

Emal sənaye sahələri çoxlu miqdarda müxtəlif çeşidli məhsullar istehsal etməkdədir. Emal sənayesinin dayanıqlı inkişafı ictimai əmək məhsuldarlığının yüksəldilməsinə, kənd təsərrüfatı istehsalının yenidən qurulmasına, məhsuldar qüvvələrin daha da səmərəli yerləşdirilməsinə, təbii sərvətlərdən səmərəli istifadə edilməsinə, ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsinə və sair bir çox tədbirlərin görülməsinə səbəb olur.

Müasir mərhələdə emal sənayesinin dayanıqlı inkişafının sürətləndirilməsi onun rəqabətqabiliyyətinin yüksəldilməsindən asılıdır. Ona görə də emal sənayesinin rəqabətqabiliyyətinin yüksəldilməsi dövlətin iqtisadi strategiyasının, o cümlədən sənaye siyasətinin mərkəzi xəttini təşkil etməlidir. Dövlət ölkədə iqtisadi artımı sürətləndirmək və istehsalın yüksək artım tempinə nail olmaq üçün məqsədyönlü şəkildə stimullaşdırıcı tədbirlərdən istifadə edir. Sənaye siyasəti də məhz belə tədbirlərdən biridir. Sənaye siyasəti dedikdə dövlətin iqtisadiyyatı tənzimləmə üsulu olub, məqsədi ölkədə iqtisadi artımı və əhalinin rifah səviyyəsinin yüksəldilməsini təmin etməyə yönəlik kompleks tədbirlər başa düşülür.

Bundan başqa ölkədə aparılan sənayeləşmə siyasəti qeyri-neft sənayesinin, xüsusilə, onun dinamik inkişafını təmin etmişdir. Belə ki, sənaye sahəsində istehsal olunan məhsulun 69,9 faizi və ya 32857,5 milyon manatı mədənçıxarma sənayesi sahəsində, 21,5 faizi və ya 11793,8 milyon manatı emal sənayesi sahəsində, 4,3 faizi və ya 2011,6 milyon manatı elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 0,7 faizi və ya 336,3 milyon manat su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində istehsal edilmişdir[2].




**Qrafik 2.1.1. Sənaye sahələrinin ümumi sənayedə xüsusi çəkisi (%-lə) (2019-cu il)**
**Mənbə: Azərbaycanın Statistik Göstəriciləri. Statistik məcmuə. Bakı-2021**

Məhz bu səbəblərdən irəli gələrək, Respublika Prezidenti tərəfindən 2014-cü il Azərbaycanda "Sənaye ili" elan edilmişdir və son illərə kimi 230-dan çox sənaye müəssisələri yaradılmışdır. 123 min yeni iş yerləri açılmışdır ki, onlardan 100 minə yaxını daimi iş yeri olmuşdur. Azərbaycan Respublikasının apardığı düzgün daxili və

[2] Azərbaycanın sənayesi [Statistik məcmuə] / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, – Bakı, – 2021, – 252 s.

xarici siyasəti nəticəsində son illərdə ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda ciddi yeniliklər və bir çox nailiyyətlər əldə olunmuşdur. Nəticədə respublikamız bir çox göstəricilər üzrə dünyada sürətlə inkişaf edən qüdrətli ölkəyə çevrilmiş və aparılan uğurlu iqtisadi islahatların nəticəsində, əvvəlki illərdə də olduğu kimi, demək olar ki 2019-cu ildə də ölkəmizdə bütün makroiqtisadi göstəricilər yüksək səviyyədə olmuşdur[3].

Azərbaycanda aparılan uğurlu iqtisadi siyasətin nəticəsidir ki, dünyada baş verən maliyyə iqtisadi böhranına baxmayaraq, respublikamızda makroiqtisadi sabitlik qorunub saxlanılmış, dünyadakı böhranlı proseslərin Azərbaycana təsiri minimuma enmiş və ölkə iqtisadiyyatı davamlı və dayanıqlı inkişafını qorumuşdur. Nəticədə 2010-2019-cu illərdə Azərbaycan iqtisadiyyatında sürətli inkişaf dinamikası müşahidə olunmuşdur.

Qeyd olunduğu kimi, sənayenin mühüm aparıcı sahəsi olan emal sənayesinin inkişaf səviyyəsi istənilən ölkənin stabil və davamlı iqtisadi inkişafının təmin edilməsinin mühüm amillərindən biridir. Çünki emal sənayesi iqtisadiyyatın mürəkkəb sahəsi kimi, cəmiyyətin müxtəlif tərəflərinin inkişafını tələb edir və bu inkişaf səviyyəsindən asılı olaraq da onun rəqabət qabiliyyəti formalaşır. Son dövrlərdə ölkədə aparılan genişmiqyaslı köklü islahatlar nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, emal sənayesinin də dirçəlişinə səbəb olmuşdur.

İqtisadi təhlillər apararaq görürük ki, ölkədə 2003-cü ildə ÜDM istehsalı 7,1 milyard manat, 2004-cü ildə 8,5 milyard manat təşkil etmişdisə, 2008-i ildə bu göstərici 40,1 milyard manat, 2009-cu ildə 34,6 milyard manat, 2010-cu ildə 42,5 milyard manat, 2019-cu ildə isə 81,9 milyard manat olmuşdur. Bununla yanaşı, respublikamız son bir neçə ildə iqtisadi artım tempinə görə dünyada liderlər sırasında

---

[3] 2014-cü ilin Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 10 yanvar 2014-cü il. – Bakı, – 2014, – 5 s.

olmuşdur. Bu müddət ərzində dünya iqtisadiyyatında artım ümumilikdə 25,4%, o cümlədən ABŞ-da 13,3%, Avropa Birliyi ölkələrində 13,7%, MDB-də 45,4%, Çində 66,5% olduğu halda, ölkəmizin iqtisadiyyatında bu dinamika 2,6 dəfə artımla müşahidə olunmuşdur[4].

**4. Emal sənayesi müəssisələrinin rəqabətədavamlı məhsullar istehsalı zamanı mövcud olan problemlər kimi innovasiyalara mane olan amillər üzə çıxarılmışdır.**

Respublikada emal sənayesi müəssisələrində istehsalın inkişafının müasir vəziyyətinin təhlili göstərir ki, 2000-ci illərin əvvəlində baş vermiş böhran sənaye istehsalının həm kəmiyyət və həm də keyfiyyət baxımından ciddi şəkildə geriləməsinə səbəb olmuşdur. Son illərdə emal sənayesində inkişaf meylləri yaransa da, fikrimizcə, baş vermiş ətalətliliyin aradan qaldırılması və emal sənayesinin keyfiyyət göstəricilərinin yaxşılaşması üçün iqtisadiyyatın bu sahəsinə güclü investisiya axınını təmin edə biləcək nisbətən uzunmüddətli dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi tələb olunur.

Emal sənayesi müəssisələrinin inkişafının müasir vəziyyətindən məlum olur ki, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq ölkə iqtisadiyyatında həyata keçirilən iqtisadi islahatlar bu sahədə istehsalın kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşmasına ciddi təsir göstərməmişdir. Bu əsasən hal-hazırda emal sənaye müəssisələrinin inkişafında mövcud olan bir çox problemlərin həll edilməmiş olaraq qalması ilə əlaqədardır. İstər ölkə, istərsə də region miqyasında maddi istehsal sahələrinin o cümlədən də, emal sənayesi sahələrinin inkişaf potensialının əsas hərəkətverici qüvvələrindən biri infrastruktur sahələrinin inkişaf səviyyəsidir. Aparılan tədqiqatlardan məlum olur ki, müasir şəraitdə emal sənayesinin inkşaf problemlərindən biri və ən başlıcası infrastruktur (istehsal və bazar infrastruktur sahələri) sahələrinin zəif inkişaf etməsidir.

[4] Azərbaycanın Statistik Göstəriciləri / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, – Bakı, – 2021, – 788 s.

**Emal sənayesi müəssisələrinin işinin əsas göstəriciləri Cədvəl 2.1.4**

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| -Fəaliyyət göstərən müəssisələrin sayı | 1762 | 1778 | 1775 | 1826 | 2034 | 2330 |
| dövlət mülkiyyəti | 149 | 144 | 140 | 117 | 118 | 124 |
| qeyri-dövlət mülkiyyəti | 1613 | 1634 | 1635 | 1709 | 1916 | 2206 |
| -Sənaye fəaliyyəti ilə məşğul olan qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 14559 | 15711 | 16009 | 17154 | 17988 | 19842 |
| -Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mln manat | 8072 | 7880 | 8899 | 9723.5 | 10465 | 11794 |
| -Sənaye məhsulunun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə | 102.2 | 107 | 101 | 98 | 108 | 111.5 |
| -Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə | 20.2 | 24.3 | 22.9 | 24.4 | 21.9 | 25.1 |
| -Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin payı, faizlə | 18.1 | 24 | 22.2 | 20.1 | 17.4 | 20.9 |
| -İşləyənlərin orta siyahı sayı, min nəfər | 105.2 | 99.7 | 95.2 | 105.2 | 106.1 | 106.1 |
| əvvəlki ilə nisbətən, faizlə | 103.6 | 94.8 | 95.5 | 110.5 | 100.9 | 100.9 |
| -Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, faizlə | 53.3 | 53.3 | 51.2 | 53.4 | 50.4 | 50.4 |
| -Bir işçinin orta aylıq əmək haqqı, manat | 473 | 515 | 543 | 554 | 554 | 554 |
| -Əsas kapitala investisiyalar, mln manat | 644.6 | 482.9 | 424.3 | 652.6 | 1432 | 2466.4 |
| -Sənayeyə yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, faizlə | 8.4 | 5.7 | 4.3 | 6.2 | 16.9 | 26.7 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| -Əsas sənaye-istehsal fondlarının mövcudluğu, ilin sonuna, milyon manat | 7352.3 | 7710 | 8082.4 | 9013.2 | 9073.2 | 9073.2 |
| -Sənaye məhsulu istehsalçılarının qiymət indeksi, əvvəlki ilə nisbətən, faizlə | 115.7 | 91.9 | 115.2 | 130.3 | 112.4 | 112.4 |

**Mənbə: Azərbaycanın Sənayesi. Statistik məcmuə. Bakı-2021**

Emal sənayesinin inkişafının aşağı səviyyədə olmasının əsas səbəblərindən biri də əksər sənaye müəssisələrinin texnoloji cəhətdən yenidənqurulması işinin çox zəif səviyyədə aparılmasıdır. Tədqiqatlar göstərir ki, 2000-ci illərin əvvəllərində respublikanın emal sənayesində mövcud maşın və avadanlıqların fiziki və mənəvi köhnəlməsi onların 35 faizinin təcili dəyişilməsini, 60 faizinin isə modernləşməsini tələb edirdi. 2000-2019-cu illərdə mövcud əsas fondların köhnəlmə dərəcəsi daha da artmışdır. Hazırda respublikada istehsal əsas fondlarının fiziki və mənəvi cəhətdən aşınan hissəsi 80 faizə qədər təşkil edir. İstismarda olan maşın və avadanlıqların orta xidmət müddəti müvafiq normalardan 2,1-2,7 dəfə çoxdur.

Ölkədə emal sənayesi müəssisələrinin inkişaf problemlərindən biri də bu müəssisələrdə marketinq fəaliyyətinin olmaması və ya zəif inkişaf etməsidir. Hazırda Azərbaycan iqtisadiyyatında islahatların institutsional sistemdə başa çatdırılmaması ilə əlaqədar olaraq təkmil bazar mexanizmi formalaşmamışdır. Belə şəraitdə müəssisələrin idarəetmə strukturunda dəyişikliklərin edilməsinə və bazarda səmərəli fəaliyyətə imkan verən struktur bölmələrinin yaradılmasına ehtiyac yaranır. Xüsusilə, bu ehtiyac bazarın öyrənilməsi və məhsulun reallaşdırılması ilə əlaqədardır.

Ölkədə emal sənayesinin müasir vəziyyətinin təhlilindən məlum olur ki, hal-hazırkı şəraitdə emal sənayesi müəssisələrinin inkişafına mane olan əsas amillərdən biri də bu sahədə yüksək ixtisaslı kadrların çatışmazlığıdır. Məlumdur ki, respublikamız keçmiş sovetlər birliyində olarkən ölkə sənayesində yüksək səviyyədə kadr potensialı formalaşdırmaq mümkün olmuşdur. Lakin, respublikamız müstəqil

dövlətə çevrildikdən sonra obyektiv və subyektiv səbəblərdən sənaye müəssisələrinin inkişafının zəifləməsi, digər tərəfdən indiki şəraitdə iqtisadiyyatın digər sahələrinə nisbətən sənaye, xüsusilə də emal sənayesi müəssisələrində əməkhaqqının aşağı olması uzun illər ərzində toplanmış istehsal, texnoloji və kommersiya biliklərinin itirilməsi baş vermişdir və gələcəkdə bu istehsalların bərpası zamanı kadr problemi həlledici amillərdən biri olacaqdır.

Hesab edirik ki, hazırki iqtisadi şəraitdə qeyri-neft sektorunda emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətliliyinin təmin edilməsində, daxili istehsalın inkişaf etdirilməsində kiçik və orta sənaye müəssisələrininin modernləşdirilməsi, yenidən qurulması vacib şərtdir. Bunun üçün bu sahəyə dövlət tərəfindən təkmilləşdirilmiş şəkildə investisiya yardımı mexanizmi hazırlanması, yerli və xarici investisiyaların bu sahələrə cəlbi, investorları stimullaşdırmaq üçün əlverişli investisiya mühitinin yaradılması hökumətin bu sahədə görməli olduğu əsas tədbirlərdəndir.

**5. Emal sənayesi müəssisələrinin respublikamızın dayanıqlı iqtisadi inkişafında rolunu yüksəltmək və rəqabətədavamlı innovasiyalı məhsulların istehsalını stimullaşdırmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir.**

1. Yeni və ya təkmilləşdirilmiş məhsul növlərinin yaradılması ilə bağlı aparılan elmi-tədqiqat işlərinin vergidən azad edilməsi, güzəştli dövlət və bank kreditlərinin tətbiqi;
2. İnnovasiya fəaliyyətinin reallaşdırılması məqsədilə istifadə edilən əsas vəsaitlərin amortizasiya normalarına güzəştli əmsalların tətbiqi;
3. Vergiqoyma sistemində innovasiya üzrə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə, patentləşdirmə xərclərinə məhdudiyyətin aradan qaldırılması;
4. İnnovasiya menecmenti və marketinq, layihələrin idarə edilməsi, müasir texnikanın layihələndirilməsi və istismarı üzrə ixtisaslı mütəxəssislərin hazırlanmasında dövlət dəstəyinin reallaşdırılması və sair.

Deməli, emal sənayesi müəssisələrinin rəqabət qabiliyyətli dayanıqlı və davamlı inkişafı elmi-texniki tərəqqinin imkanlarından səmərəli istifadə etməklə həyata keçirilməlidir ki, bu da keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalına imkan verər. Bu işin öhdəsindən isə ancaq yeni texnika və texnologiyaların əldə olunması və gecikmədən istehsala tətbiq olunması işinin elmi cəhətdən təşkil edilməsi gələ bilər.

Bu da istehsalın səmərəliliyinin yüksəldilməsi ilə nəticələnir. Beləliklə də iqtisadiyyatın innovasiyalı dayanıqlı və davamlı inkişafı istehsalın məqsədli inkişafının ən mühüm amilidir. Lakin, aparılan təhlillər göstərir ki, respublikamızın emal sənayesi müəssisələrində innovasiya fəaliyyətinin ETT-nin inkişaf sürəti müasir bazar iqtisadiyyatının tələblərinə tam cavab vermir. ETT-nin nailiyyətləri sənayenin neft sektorunda tətbiq edilsə də, qeyri-neft sənayesində tərəqqi çox yavaş sürətlə baş verir. Buna görə də emal sənayesi müəssisələrində innovasiyalı layihələrin həyata keçirilməsi və bu sahədə tədqiqat işlərinin aparılması gücləndirilməlidir.

**6. Gələcəkdə Azərbaycanın sənaye potensialının artırılması məqsədi ilə, bu sektora xarici investorlar tərəfindən birbaşa investisiya qoyuluşlarının artırılmasının səmərəli yolları müəyyən edilmiş və bir sıra təkliflər verilmişdir.**

Respublikada emal sənayesi müəssisələrinin rəqabətədavamlı dayanıqlı və davamlı inkişafının təmin edilməsinə investisiya qoyuluşlarının həcm və strukturu birbaşa təsir göstərir. Buna görə də əsas kapitala investisiya qoyuluşlarının prioritetləşdirilməsi emal sənayesi müəssisələrinin gələcək inkişaf istiqamətlərinin müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir. Emal sənayesində investisiya qoyuluşunun prioritet istiqamətlərinin seçilməsi zamanı həm mikro, həm də makro amillər nəzərə alınmalı, prioritetləşdirmə hər iki səviyyə üzrə baş verməlidir.

İnvestisiya qoyuluşlarının prioritet istiqamətlərini müəyyən edərkən, ilk növbədə, istehsal vasitələrinin emal sənayesi müəssisələrinə yönəldilməsi və onun digər sahələrin inkişafı üçün əsas

olmasını nəzərə almaq zəruri şərtlərdən biridir. Bununla belə, investisiya qoyuluşlarının istiqamətlərinin müəyyən edilməsilə əlaqədar sahələrin inkişaf səviyyəsi əhəmiyyətli şəkildə təsir göstərir. Yəni, respublikada iqtisadiyyatın səmərəli inkişafını təmin etmək üçün yüksək səviyyəli enerji kompleksinin, nəqliyyat sisteminin, sənaye və kənd təsərrüfatının satışı sisteminin və sair mövcud olması daha vacibdir.

Emal sənayesi sahələrində rəqabətədavamlı məhsullar istehsalını stimullaşdırmaq üçün istehsala yönəldilən investisiyaların həcmini artırmaq, gömrük siyasəti vasitəsilə optimal rəqabət rejimini yaratmaq, ixrac yönümlü istehsalı genişləndirmək və bunun üçün xüsusi iqtisadi zonalar yaratmaq, güzəştli kreditlərin verilməsinin idxal-ixrac əməliyyatları üçün inzibati qaydaların asanlaşdırılmasını həyata keçirmək lazımdır.

Dissertasiya işinin əsas müddəaları və əldə olunmuş nəticələr dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır.

1. Əfəndiyev, S.Q. Azərbaycanın iqtisadi inkişafında qeyri neft sektorunun rolunun qiymətləndirilməsi // Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Qafqaz Universiteti, Atatürk Universiteti, Hacettepe Universiteti, Marmara Universiteti, Ondokuz Mayıs Universiteti. – Bakı, Qafqaz Universiteti: – 25-26 Aprel, – 2013, – s. 47-49
2. Əfəndiyev, S.Q. Azərbaycanın iqtisadi inkişafında emal sənayesi müəssisələrinin rolunun qiymətləndirilməsi // Azərbaycan-2020: neft-qaz sənayesinin inkişaf perspektivləri, Elmi Praktiki Konfransı. – Bakı, Azərbaycan Dövlət Neft Akademiyası: – 2-3 may, – 2013, – s. 201-203
3. Əfəndiyev S.Q., Süleymanov Q.S. Emal sənayesi müəssisələrinin inkişaf meylləri və onların rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi // AMEA-nın Xəbərləri, İqtisadiyyat elmləri seriyası, – Bakı, –2013. №1, – s. 113-119

4. Əfəndiyev, S.Q. “Azərbaycanın qeyri-neft sektorunun mövcud vəziyyətinin qiymətləndirilməsi // AMEA-nın Xəbərləri, İqtisadiyyat elmləri seriyası, – Bakı, – 2013. №2, – s. 157-162
5. Əfəndiyev, S.Q. Azərbaycan Respublikasında iqtisadi inkişafın formalaşmasının nəzəri metodoloji əsasları // AMEA-nın Xəbərləri, İqtisadiyyat elmləri seriyası, – Bakı, – 2013. №3, – s. 50-55
6. Əfəndiyev, S.Q., Əliyev, B.N., Qəhrəmanov, V.R. Maşınqayırma müəssisələrinin səmərəli idarə edilməsində dövlətin innovasiya siyasətinin əsas istiqamətləri // Azərbaycanda yüksək texnologiyaların texniki-iqtisadi problemləri, – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Texniki Universiteti. – Bakı, Azərbaycan Texniki Universiteti: – 10-11 dekabr, – 2013, – s. 140-142
7. Əfəndiyev, S.Q. Azərbaycanın iqtisadi inkişafında maşınqayırma sahələrinin rolu və onun inkişaf etdirilməsinin strateji istiqamətləri // “Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya”, İqtisadiyyat və Beynəlxalq Münasibətlər IV Beynəlxalq Konqres. – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Qafqaz Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, AMEA-nın İqtisadiyyat İnstitutu. – Bakı, Qafqaz Universiteti: – 2-4 may, – 2014, – s. 304-308
8. Əfəndiyev, S.Q. Azərbaycanın sənaye sahələrinin iqtisadi inkişafının mövcud vəziyyətinin qiymətləndirilməsi // “İpək yolu” Jurnalı. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Universiteti. – Bakı, – 2014. №1, – s. 92-99
9. Əfəndiyev, S.Q. Emal sənaye sahələrinin iqtisadi inkişaf problemləri və onların həlli yolları // “Əsrin Müqaviləsi” Heydər Əliyevin yeni neft strategiyasıdır. Respublika Elmi Konfransı. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti. – Sumqayıt, Sumqayıt Dövlət Universiteti: – 24-25 sentyabr, – 2014, – s. 167-168
10. Əfəndiyev, S.Q.Emal sənayesinin iqtisadi inkişafının strateji idarəedilməsində dövlət siyasətinin əsas istiqamətləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ilinə həsr olunmuş “Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi

Konfransı”. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Qafqaz Universiteti. – Bakı, Qafqaz Universiteti: – 17-18 aprel, – 2015, – s. 630-631

11. Əfəndiyev, S.Q.Azərbaycan Respublikasının iqtisadi inkişafında emal sənayesi müəssisələrinin rolunun artırılması üçün bir sıra təkliflər // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ilinə həsr olunmuş “Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı”. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Qafqaz Universiteti. – Bakı, Qafqaz Universiteti: – 29-30 aprel, – 2016, – s. 502-504
12. Əfəndiyev, S.Q.Azərbaycan Respublikasında emal sənayesi müəssisələrinin iqtisadi inkişafda rolu və onun təkmilləşdirilməsi mexanizmləri // “Boloniya təhsil prosesində universitet-sənaye əlaqələrinin müasir problemləri” adlı Beynəlxalq Simpozium. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Texnologiya Universiteti. – Gəncə, Azərbaycan Texnologiya Universiteti: – 30 aprel-1 may, – 2016, – s. 336-337
13. Əfəndiyev, S.Q.Emal sənayesi müəssisələrinin iqtisadi inkişafı haqqında proqnoz // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı”. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Mühəndislik Universiteti. – Bakı, Bakı Mühəndislik Universiteti: – 05-06 may, – 2017, – s. 324-325
14. Əfəndiyev, S.Q.Azərbaycan sənayesinin inkişafına dair strateji yol xəritəsinin başlıca hədəfləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı”. – Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Mühəndislik Universiteti. – Bakı, Bakı Mühəndislik Universiteti: – 27-28 aprel, – 2018, – s. 647-648
15. Эфендиев С.К. Оценка роли машиностроителных предприятий в экономическом развитии Азербайджана // Международный Технико-Экономический Журнал. – Министерство сельского хозяйство Российской Федерации департамент научно-технологической политики и образования. – Москва, –2014. №3, – с. 49-53

Dissertasiyanın müdafiəsi 17 Noyabr 2021- ci il tarixində saat 11$^{00}$ - da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED.1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1001, Azərbaycan Respublikası, Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 30, Azərbaycan Milli Elmlər Akademiyası.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 Oktyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.10.2021

Kağızın formatı: A5

Həcm: 39515

Tiraj: 100